Kazus

Faktlar :

1. *Hadisələrə dair ərizəçinin versiyası*

19 noyabr 2010-cü il tarixində təximinən səhər saat 9:00 radələrində ərizəçinin binası BŞİH əməkdaşları və polis əməkdaşları tərəfindən əhatəyə alınıb. 9:11 radələrində ərizəçinin mənzilinin qapısı döyülüb. Ərizəçi qapının gözlüyündən baxarkən orada polis əməkdaşları və digər işçilər də daxil olmaqla təxminən 10 nəfər şəxsin olduğunu görüb. Onlar ona qapını açmağı əmr edib. Ərizəçi onun çıxarılması üçün məhkəmə qərarının olmadığını bildirərək qapını açmaqdan imtina edib. Ərizəçinin rədd cavabının ardından onlar qapını sındırıb və ərizəçinin iradəsinin əksinə olaraq mənzilə daxil olub. Ərizəçi onlardan mənzili tərk etmələrini istəyib, lakin onlar bunu etməkdən imtina edib. Ərizəçinin sözlərinə görə, özünü yaxşı hiss etmədiyi üçün təxminən 9:30 radələrinə təcili yardım çağırıb. Təcili yardım qısa zamanda gəlib, lakin polis həkimin mənzilə daxil olmasına icazə verməyib. Ərizəçinin vəziyyəti pisləşdiyi zaman o, polis əməkdaşı tərəfindən çölə çıxarılıb və həkim ona binanın qarşısında tibbi yardım göstərə bilib. Hadisələrə dair öz versiyasını dəstəkləmək üçün ərizəçi onun mənzildən çıxarılma hallarını göstərən video yazı təqdim edib. Video yazıdan aydın şəkildə görünür ki, ərizəçi işə hələ də məhkəmə tərəfindən baxıldığını deyərək qapını açmaqdan imtina etdikdən sonra bir qrup şəxs ərizəçinin mənzilinin qapısını sındırır. Növbəti görüntüdə ərzəçi mənzildə divanda uzanarkən bir qrup BŞİH əməkdaşının və formalı polis əməkdaşlarının mənzilə daxil olduğu və ona məxsus əşyaları və mebeli götürdükləri görünür. Videodan həmçinin aydın olur ki, ərizəçi özünü yaxşı hiss etmir və BŞİH əməkdaşları və polis əməkdaşlarından həmin vaxt binanın çölündə olan həkimi çağırmalarını istəyir. Saat 10:00-da ərizəçi 22 sayl Nəsimi Rayon Polis İdarəsinə aparılır və burada o, binanın digər sakinləri ilə birlikdə saxlanılır. Polis idarəsində o, özünü pis edir və yenidən təcili yardım çağırılır. O, həkim tərəfindən müayinə olunur və bu barədə müvafiq tibbi arayış verilir. Tibbi arayışda qeyd edilir ki, təcili yardım polis idarəsinə saat 10:45-də gəlib və polis idarəsində ərizəçiyə tibbi yardım göstərilib. Saat 18:30-da polis məmuru ərizəçi və digər sakinlərdən iğtişaş yaratdıqları üçün polis idarəsinə aparıldıqlarına dair ifadə vermələrini istəyir. Lakin, onlar bunu etməkdən imtina edir. Daha sonra polis məmuru onlardan hər hansı ifadə yazmaqdan imtina etdiklərini təsdiq edən ifadəni imzalamağı istəyir. Ərizəçi bunu da etməkdən imtinar edir. Saat 19:10-da ərizəç polis idarəsindən buraxılır. Ona polis tərəfindən saxlandığına dair hər hansı sənəd təqdim edilmir. Sərbəst buraxılmasının ardından ərizəçi bu müddət ərzində BŞİH əməkdaşları tərəfindən sökülmüş mənzilinə qayıdır. BŞİH rəsmisi Z.İ tərəfindən ona məlumat verilir ki, əşyaları və mebəli mənzildən çıxarılıb və anbara göndərilib. Ərizəçi anbara çatdığı zamanı ona məxsus əşyaların və mebel avadanlığının bir çoxuna zərər dəydiyini və onlardan bəzilərinin olmadığını aşkarlayır. 22 noyabr 2010-cu il tarixində bina BŞİH tərəfindən tamamilə sökülür.

2. *Hadisələrə dair Hökümətin versiyası*

19 noyabr 2010-cu ildə ərizəçi və bir qrup insan köçürülməyə qarşı icazəsiz etiraz nümayişi keçirdiyi üçün polis idarəsinə aparılmışdır. Polisin xəbərdarlığına baxmayaraq toplaşmanı dağıtmaqdan imtina etdikləri üçün polis ərizəçini və digər iştirakçıları saat 11:10-da polis idarəsinə aparmış və onlarla edilən müzakirələrin ardından saat 13:50-də onları azad etmişdir. Polis ərizəçi inzibati mənada saxlanılmadığı üçün onun saxlanılması ilə bağlı qeyd tərtib etməmişdir. Hadisələrə dair öz versiyasını dəstəkləmək üçün Hökümət qeyri-qanuni toplaşma keçirməyə cəhd etdikləri üçün ərizəçi də daxil olmaqla səkkiz şəxsin 22 saylı Nəsimi Rayon Polis İdarəsinə gətirildiyini göstərən 19 noyabr 2010-cü il tarixli *raport* təqdim etmişdir. Bu raport 22 saylı Nəsimi Rayon Polis İdarəsinin Rəhbərinə ünvanlanmış və üç polis məmuru tərəfindən imzalanmışdır.

Hadisələrlə bağlı yerli məhkəmə prosesləri

22 noyabr 2010-cu il tarixində ərizəçi məhkəmə polis tərəfindən qanunsuz olaraq azadlıqdan məhrum edilməsini iddia edərək cinayət əməlindən şikayət təqdim edib. O, Məhkəməyə təqdim etdiyi eyni faktiki məlumatı (yuxarıdakı) təqdim edərək iddia etmişdir ki, o, 19 noyabr 2010-cu il tarixində 22 saylı Nəsimi Rayon Polis İdarəsində 10:00-19:10 saatları arasında qanunsuz olaraq saxlanılmışdır. Bununla əlaqədar, o təqdim etmişdir ki, mənzilindən zorla çıxarılmasını təşkil edilməsi məqsədilə polis tərəfindən saxlanılmışdır. Daha sonra o iddia etmişdir ki, polis mənzilinə qanunsuz şəkildə girdiyi üçün mənzilə hörmət hüququ pozulmuşdur.

Birinci instansiya məhkəməsində aparılan məhkəmə prosesləri əsnasında 30 noyabr 2010-cu il tarixində 22 saylı Nəsimi Rayon Polis İdarəsindinin Rəhbəri məhkəməyə 19 noyabr 2010-cu il tarixli hadisələrlə bağlı məktub təqdim etmişdir. Nəsimi Rayon Məhkəməsinin Sədrinə ünvanlanmış məktubda deyilir: "23 noyabr 2010-cü il tarixli 6(006)-40/2010 saylı məktubunuza cavab olaraq bildirilir ki, 19 noyabr 2010-cu il tarixində saat 11:00-da vətəndaş Nuriyyə Abəzovna Xaliqova və başqa 8 şəxs... Füzuli küçəsində 58 saylı binanın qarşısında qanunsuz piket keçirməyə cəhd etdikləri üçün Nəsimi Rayon Polis Administrasiyasının göstərişinə uyğun olaraq polis əməkdaşları tərəfindən 22 saylı Nəsimi Rayon Polis İdarəsinə gətirilmişdir. Onlarla "*Profilaktik söhbətlər*" aparılmış, onlarla bağlı İnzibati Xətalar Məcəlləsinin 298-ci Maddəsinə əsasən raportlar tərtib edilmiş və onlar qanunla nəzərdə tutulmuş üç saatlq müddət aşılmadan sərbəst buraxılmışdır".

10 dekabr 2010-cu il tarixində baş tutan məhkəmə iclasının protokolundan aydın olur ki, iki şahid F.G. və L.A. məhkəmədə ərizəçinin arqumentlərini təsdiq etmək üçün ifadə vermişdir. Xüsusilə, onlar bildirmişdir ki, ərizəçi polis idarəsinə saat 10:00-da aparılmış və 20:00-da sərbəst buraxılmışdır. Onlar daha sonra ifadə etmişdilər ki, polis əməkdaşları və digər işçilər qapını sındıraraq mənzillərinə qanunsuz şəkildə daxil olmuş və onlar mənzildən zorla çıxarılmalarının reallaşdırılması üçün polis tərəfindən saxlanılmışdır.

22 saylı Nəsimi Rayon Polis İdarəsinin nümayəndəsi olan polis məmuru E.N. də həmçinin eyni məhkəmə iclasından dinlənilmişdir. O məhkəməyə bildirmişdir ki, ərizəçi polis idarəsində olduğu müddətdə onunla pis rəftar edilməmiş və özünü pis etdiyi zaman şəxsən tibbi yardım çağırmışdır. Daha sonra polis idarəsində ərizəçiyə həkim tərəfindən tibbi yardım göstərilmişdir. O daha sonra qeyd etmişdir ki, ilk olaraq ərizəçi və digər şəxslərin nə üçün polis idarəsində olması barədə məlumatı olmamı. və daha sonra onların qanunsuz nümayişdə iştirak etdikləri üçün gətirildiklərini öyrənmişdir.

Məhkəmə iclasının protokolundan həmçinin aydın olur ki, polis idarəsinə saat 10:00-da gətirildiyinə dair iddiasını dəstəkləmək üçün ərizəçi təcili yardımın polis idarəsinə 10:45-də çatdığını və ona tibbi yardım göstərildiyini təsdiq edən 19 noyabr 2010-cu il tarixli tibbi arayışın nüsxəsini təqdim etmişdir. Ərizəçi həmçinin polisin necə qapını sındıraraq mənzilə daxil olduğunu və ona məxsus əşyaların və mebel avadanlığının polis əmədaşlarının iştirakı ilə BŞİH əməkdaşları tərəfindən aparıldığını göstərən video yazısı təqdim etmişdir. Məhkəmə iclasından video yazısının araşdırılması zamanı məlum olmuşdur ki, video yazı ərizəçinin mobil telefonun kamerası ilə 19 noyabr 2010-cı il tarixində saat 9:11 və 9:45 arasında qeydə alınmış və onun doğruluğu təsdiq olunmuşdur.

20 dekabr 2010-cu il tarixində Nəsimi rayon məhkəməsi ərizəçinin tələbini rədd etmişdir. Məhkəmə Nəsimi Rayon Polis İdarəsinin Rəhbərinin təqdim etdiyi 30 noyabr 2010-cu il tarixli məktuba və ərizəçinin qanunsuz piket keçirdiyinə görə polis tərəfindən xəbərdarlıq almasına dair 19 noyabr 2010-cu il tarixli inzibati xəta haqqında protokola istinad etmişdir. Məhkəmə işdə heç bir cinayət ünsürünün olmadığına və ərizəçinin polis tərəfindən irəli sürülən inzibati ittihamdan apellyasiya şikayəti verə biləcəyin dair qərar çıxarmışdır. Məhkəmə ərizəçinin öz iddiasını dəstəkləmək üçün təqdim etdiyi video yazılar və tibbi arayış kimi sübuta dair heç bir qeyd etməmişdir. Məhkəmə həmçinin polisin ərizəçinin mənzilinə müdaxiləsinin qanunililiyi ilə bağlı da səssiz qalmışdır. F.G. və L.A. tərəfindən verilən şahid ifadələri ilə bağlı, məhkəmə onların ərizəçinin polis idarəsinə saat 10:00-da aparılması və təxminin 20:00 radələrində sərbəst

buraxılmasına və polisin zorla çıxarılma üçün onların mənzilinə qanunsuz şəkildə daxil olmasına dair ifadələrini nəzərə almadan, şahidlərin polis idarəsində saxladıqları müddətdə onlarla pis rəftar edildiyini bildirmədiklərinə dair ifadəsinə əsaslanmaqla kifayətlənmişdir.

Ərizəçi polis tərəfindən qanunsuz olaraq saxlandığını və polisin qapını sındıraraq onun mənzilinə qeyri-qanuni şəkildə daxil olduğunu təkrarən bildirməklə bu qərardan apellyasiya şikayəti vermişdir. O, bildirmişdir ki, onun iddiası şahid ifadələri, video yazılar və tibbi arayış ilə dəstəklənir. Bununla əlaqədar, o, 19 noyabr 2010-ci il tarixində hər hansı nümayiş təşkil etmədiyini və belə bir nümayişdə iştirak etmədiyini ifadə etmişdir. Bundan əlavə o bildirmişdir ki, istənilən halda polis tərəfindən iddia edildiyi ki saat 11:00-da bu cür toplaşmada iştirakı mümkünsüz idi, çünki o, polis idarəsinə saat 10:00-da aparılmış və bu fakt ona ilkin tibbi yardım göstərmək üçün polis idarəsinə təcili yardımının saat 10:45-də gəldiyini göstərən tibbi arayış ilə dəstəklənmişdir. Son olaraq, o, video yazıdan polis əməkdaşlarının və BŞİH işçilərinin qeyri-qanunsuz şəkildə onun mənzilinə daxil olduğunun aydın şəkildə göründüyünü ifadə etmişdir.

13 yanvar 2011-ci ildə Bakı Apellyasiya Məhkəməsi ərizəçinin konkret iddialarını araşdırmadan apellyasiya şikayətini rədd etmişdir.

Ali Məhkəmə Bakı Apellyasiya Məhkəməsinin qətnaməsini qüvvədə saxlamışdır.

1) ***Ərizəçinin Konvensiyanın 8.1 maddəsi ilə nəzərdə tutulmuş hüququ pozulmuşdur?***

2) ***Əgər ərizəçinin Konvensiyanın 8.1 maddəsi ilə nəzərdə tutulmuş hüququ pozulmuşdursa, bu müdaxilə Konvensiyanın 8.2-ci maddəsinə uyğun olmuşdur?***

Hazırladı: Azər Nağıyev